

*“Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır”.*
Heydər Əliyev


*Heydər Əliyev - xalq birliyi əbədidir!*

# AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 21 (809) | 16 noyabr 2015-ci il | Qiymәti 50 qәpik

**Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı**


# İlham Əliyev Antalyada keçirilən “Böyük İyirmilik” ölkələri liderlərinin Sammitində iştirak edir




Türkiyənin Antalya şəhərində “Böyük İyirmilik” ölkələri liderlərinin Sammiti öz işinə başlayıb.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Sammitdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və digər ölkələrin dövlət başçılarını, həmçinin beynəlxalq təşkilatların rəhbərlərini qarşıladı.

Zirvə görüşünün iştirakçıları birgə foto çəkdirdilər.

“Böyük İyirmilik” ölkələri liderlərinin Sammitində iştirak etmək üçün Antalyaya 13 min nümayəndə gəlib. İki gün davam edəcək Sammit çərçivəsində yeddi böyük toplantı keçiriləcək. Sammitin gündəliyinə qlobal iqtisadiyyat məsələləri ilə yanaşı, terrorçuluğa qarşı mübarizə, qaçqın problemi kimi aktual mövzular da daxildir.

Sayca onuncu dəfə keçirilən bu Sammitdə Azərbaycan xüsusi dəvətli qonaq statusunda təmsil olunur. Tədbirin ənənəsinə görə, toplantıya ev sahibliyi edən ölkə tərəfindən fəxri qonaq dəvət edilir. Türkiyənin fəxri qonaq qismində Azərbaycanı seçməsi ölkələrimiz arasındakı qardaşlıq əlaqələrinin bir daha təsdiqi olmaqla yanaşı, Azərbaycanın iqtisadi potensialına verilən önəmin göstəricisidir. Qlobal iqtisadiyyata töhfə verəcək, Cənub-Şərqi Asiya regionundan Avropaya qədər geniş bir ərazini əhatə edən iki böyük layihənin - Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin və TACIS proqramının təşəbbüskarı və iştirakçısı kimi Azərbaycanın bu Sammitdə iştirakına böyük əhəmiyyət verilir. Çünki Azərbaycan güclü iqtisadi potensiala malik ölkə və sabitlik adası kimi Qərbin, ümumiyyətlə, dünyanın diqqət mərkəzindədir. Etibarlı tərəfdaş kimi Azərbaycan regionla yanaşı, dünya iqtisadiyyatına da böyük töhfələr verir.

“G20”nin Antalya Sammiti Ankarada və Parisdə törədilmiş terror aktları qurbanlarının xatirəsinin yad olunması ilə başladı.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dedi ki, Fransa paytaxtında baş verən terror hadisəsi iqtisadiyyat və təhlükəsizlik arasındakı əlaqənin bir-biri ilə sıx bağlı olduğunu göstərir. Son illər Suriyada, bu ilin son dörd ayında Türkiyədə, daha sonra Parisdə törədilən terror aktları göstərdi ki, terrorizm bütün dünyada sülh və təhlükəsizliyə təhdid olmaqda davam edir. Terrorla mübarizədə qəti addımlar atılmalıdır və bu baxımdan Antalya Sammiti xüsusi əhəmiyyət daşıyır.

Türkiyə Prezidenti bildirdi ki, “Böyük İyirmiliyin” diqqət mərkəzində Əsasən iqtisadiyyat, siyasət, sosial məsələlər olsa da, insan amili məsələsini bunlardan ayırmaq düzgün deyil.

Prezident Rəcəb Tayyib Ərdoğan diqqəti humanitar problemə çevrilmiş və ağır nəticələr verən qaçqın böhranına yönəltdi. Bildirdi ki, qaçqın məsələsi beynəlxalq səviyyədə müzakirə olunmalı və bu sahədə əməkdaşlıq daha da möhkəmləndirilməlidir. Beynəlxalq birliyin bu sahədə fəaliyyəti lazımi səviyyədə deyil. “G20”nin Antalya Sammiti bu məsələnin həllində tarixi rol oynaya bilər.

Türkiyə dövlətinin başçısı təəssüflə vurğuladı ki, “G20”nin Sammiti təkcə böhran zamanlarında xatırlanacaq bir platforma olmamalıdır. Qlobal iqtisadi böhranın başladığı 2008-ci ildən bəri bu problemi həll etmək mümkün olmur. Atılan bütün addımlara baxmayaraq, hələ də güclü iqtisadi uğurlara nail olmamışıq. Bu baxımdan beynəlxalq birliyin atacağı addımlar getdikcə daha çox əhəmiyyət kəsb edir.

Prezident Rəcəb Tayyib Ərdoğan Antalya Sammitində müzakirə olunacaq məsələlərin müsbət nəticələr verəcəyinə əminliyini ifadə etdi.

# Dövlət Bayrağı günü

***Azərbaycanda dövlət müstəqilliyi ikinci dəfə bərpa olunduqdan sonra üçrəngli bayrağımız yenidən dalğalanmağa başlamış, respublikanın əsas atributu kimi meydana gəlmişdir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının üçrəngli bayrağı Naxçıvan Ali Məclisinin sessiyasında təntənəli şəkildə salona gətirilmişdir. Həmin vaxtdan bu bayraq dövlətimizin bayrağı kimi qəbul edilmişdir.***



Müstəqilliyimizin ildən-ilə möhkəmləndiyi və durmadan inkişaf etdiyi şəraitdə hər il noyabrın 9-da Dövlət Bayrağı gününün qeyd olunması üçrəngli bayrağımıza ümumxalq məhəbbətimizin təzahürüdür. Respublikamızın hər yerində olduğu kimi, rayonumuzda da bu tarixi gün münasibətilə silsilə tədbirlər keçirilmişdir. Rayonun ümumtəhsil məktəblərində, səhiyyə və mədəniyyət ocaqlarında, idarə və müəssisələrində Dövlət Bayrağı günü təntənəli qeyd olunmuşdur.

Bu tədbirlərin yekunu kimi bu günlərdə Ağstafadakı Heydər Əliyev Muzey-Mərkəzində Dövlət Bayrağı günü münasibətilə təntənəli yığıncaq keçirilmişdir. Yığıncağı giriş sözü ilə Rayon icra hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini Lalə Eyyubova açmışdır.

Rayon Ağsaqqallar Şurasının sədri Firdovsi Heydərli, “Ağstafa” rayon qəzetinin redaktoru İbrahim Əliyev, Ağstafa şəhər 1 nömrəli ümumtəhsil məktəbinin tarix müəllimi İndira Səmədova, Rayon mədəniyyət və turizm şöbəsinin məsləhətçi-inspektoru Mətanət Əliyeva Dövlət Bayrağı haqqında çıxış etmişlər. Şəhər 1 nömrəli orta məktəbinin ibtidai sinif şagirdləri Dövlət Bayrağına həsr olunmuş maraqlı kompozisiya nümayiş etdirmişlər.

# İlin son görüşləri



***Rayonumuzun ictimai-siyasi həyatı üçün olduqca əlamətdar illərdən biri olan 2015-ci ilin başa çatmasına bir aydan çox vaxt qalır. Yola salacağımız bu ilin ötən dövründə rayonun ictimai-siyasi həyatında böyük dəyişikliklər baş vermiş, abadlıq işləri davam etdirilmiş, mədəni-maarif, sosial obyektlərin maddi bazaları möhkəmləndirilmişdir.***

Təhsil işçilərinin ötən dövrdə əldə etdikləri nailiyyətlər daha sevindirici olmuş, 2 orta məktəb respublikanın ən yaxşı təhsil ocaqları sırasına daxil edilmiş, ümumtəhsil məktəblərini bitirən məzunların qəbul imtahanlarında əldə etdikləri nailiyyətlər daha sevindirici olmuşdu.

2015-ci ildə Rayon icra hakimiyyətinin başçısı M. Quliyev ictimaiyyətlə yerlərdə keçirdiyi ənənəvi görüşləri davam etdirmiş və bütün bunların nəticəsi olaraq ictimaiyyətin rayon rəhbərliyi ilə əlaqəsi daha da möhkəmlənmişdir.

RİH başçısı M. Quliyev bu ilin son aylarında Dağ Kəsəmən, Yuxarı Göycəli, Köçəsgər kəndlərində olmuş, həmin kəndlərin əhalisi ilə görüşmüş, onların problemləri, çətinlikləri ilə yaxından maraqlanmışdı.

## Dağ Kəsəmən kəndi

Dağ Kəsəmən kəndində ictimaiyyətlə keçirilən görüş əvvəlki illərdə olduğu kimi yenə də maraqlı, yaddaqalan və səmərəli olmuşdu. Görüşdə iştirak edən kənd sakinləri ölkəmizdə və eləcə də rayonumuzda aparılan yenidənqurma, abadlıq işlərinə öz münasibətlərini bildirmiş və qazanılan böyük qələbələrə görə ölkə başçısı cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildirmişlər.

Görüşdə çıxış edən kənd sakini Mahir Nəbiyev, Təranə Abdullayeva kəndin içməli su və kanalizasiya xəttinin tikintisinin aparılmasının sürətləndirilməsini, yeni məhəlləyə təbii qaz xəttinin çəkilməsini rayon rəhbərliyindən xahiş etmişlər.

Kənd sakinləri Tavat Aslanov, Elbrus Musayev öz çıxışlarında kənddəki 1 nömrəli orta məktəbin istilik sisteminin təbii qaz xəttinə qoşulması üçün müvafiq təşkilatlar qarşısında məsələ qaldırılmasını, kənd mədəniyyət evində aparılan əsaslı təmir işlərinin yekunlaşdırılmasını bildirmişlər.

Ailəsinə aid olan pay torpağına dövlət aktı alınmasında ciddi problemlərlə üzləşən Elmira Musayeva ona bu işdə köməklik göstərilməsini Rayon icra hakimiyyətinin başçısından xahiş etdi.

Görüşdə digər problemlərə də toxunuldu və həmin problemlərin aradan qaldırılması üçün kənd sakinlərinə köməklik göstərilməsi xahiş olundu.

## Göycəli kəndi

Rayonun ən iri yaşayış məntəqələrindən biri olan Göycəli kəndində 2668 nəfər əhali yaşayır. Kənd icra nümayəndəsi Şəmsi Abbasov, kənd bələdiyyəsinin sədri Cavanşir Məmmədov uzun illərdir ki, bu vəzifədə çalışırlar. Ötən illərdə kənddə xeyli abadlıq və yenidənqurma işləri görülmüşdü. Rayon icra hakimiyyətinin başçısı M. Quliyevlə keçirilən bu görüşdə həmin işlər barədə ətraflı məlumat verildikdən sonra kənd əhalisinin arzu və təklifləri dinlənildi, kənddə mövcud olan problemlər barədə rayon rəhbərliyinə məlumat verildi.

Kənd bələdiyyəsinin sədri C. Məmmədov kəndə beton suvarma kanalının çəkilməsini xahiş etdi və bildirdi ki, əgər kənd sakinlərinin bu təklifi nəzərə alınıb həmin problem həll edilərsə, Göycəli kəndində kənd təsərrüfatının daha da inkişaf etdirilməsinə yaxşı imkanlar yaranar.

Kəndin körpələr evi-uşaq bağçasının müasir tələblər səviyyəsində olmadığını bildirən kənd sakini Kamilə Əhmədova kənddə yeni uşaq bağçası-körpələr evinin inşa olunmasında onlara köməklik göstərilməsini xahiş etdi.

Görüşdə çıxış edən B. Yusifova, M. Əhmədova və başqaları Ağstafa-Köhnə Qışlaq avtomobil yolunun yenidən qurulmasının, kəndin içməli su xəttində təmir işlərinin aparılmasının vacibliyini göstərdilər və əmin olduqlarını bildirdilər ki, Rayon icra hakimiyyətinin rəhbərliyi kənddəki bu problemlərin həll edilməsində onlara lazımi köməklik göstərəcəkdir.

## Köçəsgər kəndi

Ağstafa RİH Başçısı Məhərrəm Quliyev Köçəsgər kəndində olarkən kəndin sosial obyektlərinin hazırkı vəziyyəti ilə yaxından maraqlandı, kənd orta məktəbində oldu və sonra ictimaiyyətlə görüş keçirdi. Görüşdə çıxış edən kənd sakini Məleykə Xəlilova kəndin yeni məhəlləsində təbii qazın olmamasını bildirdi və imkan daxilində həmin məhəlləyə qaz xəttinin çəkilməsini xahiş etdi.

Kənd sakini Anaxanım Mehdiyeva öz çıxışında qeyd etdi ki, Məşədi Ələsgərli məhəlləsində içməli su problemi uzun illərdir ki, qalmaqdadır. O, göstərdi ki, əgər bu məhəllədəki subartezian quyusunun üzərinə iri tutumlu su çəni qoyularsa, həmin problem həll oluna bilər.

Kənd sakinləri Arzu Əlləzov, Baxış Ağakişiyev kəndarası yolların təmir edilməsini, haça məhəlləsində bir ədəd subartezian quyusunun qazılmasını xahiş etdilər. Kənd sakini Sevda Əhmədova isə kənd 1 saylı uşaq tərbiyə müəssisəsinin uyğunsuz binada yerləşdiyini qeyd edərək bu probleminin həllinin vacibliyini göstərdi.

***

Ağstafa RİH Başçısı hər üç kənddə keçirilən görüşlərdə söylənilən təkliflərə, qaldırılan problemlərə, edilən xahişlərə öz münasibətini bildirdi. M. Quliyev qeyd etdi ki, bu gün elə bir yaşayış məntəqəsi yoxdur ki, orada problemlər olmasın. Çünki iş olan yerdə çətinlik də olmalıdır, problem də. Biz həmin problem və çətinliklərin aradan qaldırılması üçün müntəzəm məşğul oluruq və bundan sonra da olacağıq. Eləcə də Dağ Kəsəmən, Göycəli, Köçəskər kəndlərində mövcud olan problemlərin həll edilməsi üçün lazım olan bütün tədbirləri görəcəyik.

***İbrahim Əliyev***

# Maraqlı görüş

***Azərbaycan Respublikası Milli Məclisinə son seçkilər ərəfəsində parlament üzvlüyünə yenidən namizəd göstərilmiş tanınmış akademik, Bakıdakı Atatürk Mərkəzinin direktoru Nizami Cəfərovla rayonumuzda bir sıra görüşlər keçirilmişdir. Ağstafa seçki dairəsindən Milli Məclisə namizədliyi qeydə alınmış Nizami Cəfərov rayonun bir neçə kəndlərində öz seçiciləri ilə görüşmüş, ötən seçkilərdən bəri müstəqil Azərbaycanın qazandığı uğurlardan danışmışdır.***



Bu görüşlər içərisində ən maraqlısı və yaddaqalan Ağstafada Yeni Azərbaycan Partiyası rayon təşkilatının iqamətgahında yerli yazarlarla və rayon ağsaqqalları ilə keçirilən görüş olmuşdur. Akademik N. Cəfərov yerli şair və yazıçıların yaradıcılığı ilə həmişə maraqlandığını, onların nəşr olunan kitablarını müntəzəm oxuduğunu demişdir. O, qeyd etmişdir ki, Ağstafanın yaradıcı insanlari şairlər yurdunun ənənələrinə sadiq qalaraq xalq poeziyasının nadir nümunələrini yaradır, öz şeirləri ilə Azərbaycan ədəbiyyatına layiqli töhfələr verirlər.

Millət vəkili respublika Prezidenti cənab İlham Əliyevin üç il əvvəl Ağstafa səfərini xatırlatdı. Dedi ki, o zaman baharın ən gözəl çağında Səməd Vurğun parkında yeni tikilmiş "Yazıçılar evi"ni yerli yazarlara hədiyyə etdi. Bu yaradıcılıq ocağının açılışı münasibətilə keçirilən görüş zamanı hörmətli prezident söyləmişdir ki, bu yerlər qədimdən şairlər vətəni kimi tanınır. Ona görə mən belə bir gözəl binanı Ağstafa yazarlarının ixtiyarına verirəm. Qoy istedadı olan hər kəs burada yazıb-yaratsın, ədəbiyyatımıza yeni töhfələr versinlər.

Görüş iştirakçıları el şairlərinə, yerli yazarlara göstərilən bu qayğı və diqqət üçün müstəqil dövlətimizə, onun layiqli prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər. Sonra görüşə toplaşan el şairləri, yerli yazarlar yeni şeirlərini söylədilər. Nizami Cəfərov yerli şairlərin oxuduqları şeirlərə münasibətini söyləyərək müsbət fikirlər vurğuladı. O, arabir özü də klassik ədəbiyyatımızın dahi nümayəndələrindən söhbət açmış, onların şeirlərindən nümunələr misal gətirmişdir. Görüşdə həmçinin görkəmli Azərbaycan şair və yazıçılarının həyatından məzəli əhvalatlar onlarla əlaqədar baş verən cürbəcür hadisələr yada salınmışdır.

Görüşdə iştirak edən rayon ağsaqqalları və ziyalılar da səmimi görüş üçün Milli Məclisə layaqətli namizəd, elm aləmində böyük nüfuz qazanmış gənc akademik Nizami Cəfərova ürəkdən təşəkkür etmiş, ona elmin yollarında daha böyük uğurlar, şəxsi həyatında səadət və xoşbəxtlik arzulamışlar.

### *12 noyabr-Azərbaycan Konstitusiyası günüdür*

# Elmi-nəzəri konfrans

Noyabrın 12-də Azərbaycan Konstitusiyası günü münasibətilə Heydər Əliyev Mərkəzində elmi-nəzəri konfrans keçirilmişdir.

Konfransı giriş sözü ilə Rayon icra hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini Lalə Eyyubova açmışdır. O, qeyd etmişdir ki, Konstitusiyamızın qəbul edildiyi vaxtdan 20 il ötür. Bu illər ərzində Əsas qanunumuzun təkmilləşdirilməsi üçün çox iş görülmüşdür. İyirmi il bundan əvvəl ulu öndər Heydər Əliyevin sədrliyi ilə hazırlanmış və ümumxalq referendumu ilə qəbul olunmuş Konstitusiyamız bu gün ən mükəmməl qanun kimi hər sahəni əhatə edir. Həmin qanunla idarə olunan müstəqil dövlətimiz uğurla inkişaf edir. Bu sürətli inkişaf cənab Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Elmi-nəzəri konfransda Rayon icra hakimiyyəti hüquq şöbəsinin müdiri Müşfiq Cəfərov, Rayon prokurorunun köməkçisi Anar Cəfərov, Ağstafa şəhər 2 saylı orta məktəbin tarix müəllimi Sevda Əliyeva, Rayon gənclər və turizm şöbəsinin baş məsləhətçisi Turan Hüseynov çıxış etmişlər.

# Milli Məclisə seçkilər başa çatdı

***Azərbaycan xalqı bu il noyabr ayının 1-də daha bir tarixi əlamətdar günü yaşadı. Həmin gün ölkəmizin hər yerində Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər keçirildi.***

Ölkəmizin bütün regionlarında olduğu kimi, Ağstafada da seçkilərin yüksək səviyyədə, demokratik və şəffaf keçirilməsi tam təmin olundu. Rayonun bütün yaşayış məntəqələrində seçkilərə yüksək səviyyədə aparılan hazırlıq işləri öz müsbət nəticəsini verdi.

108 saylı Ağstafa seçki dairəsindən verilən məlumatlara əsaslanaraq qeyd etmək olar ki, rayonun bütün seçki məntəqələrində seçkilərin keçirilməsinə dair mövcud qanunlara tam əməl olundu. Ümumiyyətlə, seçki dairəsi üzrə təşkil olunmuş 40 seçki məntəqəsində rayon üzrə qeydə alınmış 44187 nəfər seçicidən 25596 nəfəri seçki məntəqələrinə gəlmiş, bülleten almış və öz səslərini demokratik qaydada istədikləri namizədə vermişlər.

Səsvermə günü namizədliklələri qeydə alınmış Rəşad Arabova, Nizami Cəfərova, Dolq Fəxrəddinə, Eldar Hacıyevə və Vüqar Kərimova seçkilər haqqında qanunda tələb olunan qaydada səs verilmiş və bütün namizədlər seçkilərin nəticələrindən tam razı qaldıqlarını bildirmişlər.

Ümumiyyətlə, qeydə alınmış və səsverməyə buraxılmış namizədlərin heç birindən seçkilərin gedişi və səsvermənin yekunu barədə seçki dairəsinə və eləcə də Mərkəzi Seçki Komissiyasına şikayətlər daxil olmamışdır.

Beləliklə, seçkilər başa çatdıqdan sonra seçkilərdə iştirak edən seçicilərin səsləri hesablanmış və nəticə aşağıdakı kimi olmuşdur.

*1. Arabov Rəşad Razim oğlu-1171 səs*

*2. Cəfərov Nizami Qulu oğlu-18485 səs*

*3. Dolq Fəxrəddin Firudin oğlu-2089 səs*

*4. Hacıyev Eldar Muxtar oğlu-1887 səs*

*5. Kərimov Vüqar Əsəd oğlu 1915 səs*

Göründüyü kimi namizədlər arasında Nizami Qulu oğlu Cəfərov digər namizədlərdən daha çox səs toplamış və o, dördüncü dəfə 108 saylı dairə üzrə yenidən Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilmişdi.

Bütün seçicilər adından və eləcə də bütün ağstafalılar adından hörmətli deputatımız Nizami Qulu oğlu Cəfərovu böyük qələbə münasibətilə ürəkdən təbrik edir, ona respublikamızın çiçəklənməsi, onun dünya miqyasında tanınması uğrunda apardığı böyük işlərdə, elmi nailiyyətlərdə daha böyük uğurlar arzulayırıq.

***İbrahim Əliyev***

*Yeni təyinat*

# Təhsil şöbəsinin yeni müdiri



Rayon təhsil şöbəsinin müdiri Fərhad Vəliyev başqa işə keçdiyinə görə tutduğu vəzifədən azad edilmişdi. Həmin vəzifəyə Leyla Məmməd qızı İsayeva təyin olunmuşdu.

Leyla İsayeva 1974-cü ildə Ağstafa şəhərində anadan olmuş, 1991-ci ildə Yuxarı Göycəli kənd orta məktəbini bitirmiş və həmin ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji İnstitutuna daxil olmuşdu. O, 1996-cı ildə institutu bitirərək rus dili və ədəbiyyat müəllimi ixtisasına yiyələnmiş, 2005-ci ildə isə Azərbaycan Müəllimlər İnstitutunun Qazax filialında təhsilini davam etdirmiş, orta məktəbdə tarix müəllimi ixtisasını almışdır.

L. İsayeva 1994-1996-cı illərdə Bakı şəhərində Üzeyir Hacıbəyovun ev muzeyində muzey baxıcısı işləmiş, sonralar isə Ağstafa rayonunun Köhnə Qışlaq kəndində, Vurğun qəsəbəsində ixtisası üzrə müəllim işləmişdir.

2009-cu ildə L. İsayevaya yüksək etimad göstərilmiş, Ağstafa şəhər Ə. Hüseynov adına 1 saylı orta məktəbin direktoru vəzifəsinə irəli çəkilmişdi. L. İsayeva ictimai işlərdə də xüsusi fəallıq göstərmiş, Ağstafa şəhər bələdiyyəsinə üzv seçilmişdir. O, həm də Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Ağstafa rayonu üzrə nümayəndəsidir.

Leyla Məmməd qızı İsayeva Ağstafa rayon İcra Hakimiyyətinin Başçısı M. Quliyevin 26 oktyabr 2015-ci il tarixli əmri ilə Ağstafa rayon Təhsil Şöbəsinin müdiri vəzifəsinə təyin olunmuşdu.

Təbrik edirik!

# Payızlıq əkin-səpin işləri başa çatmaq üzrədir

***2015-ci ilin bol məhsulu uğrunda gərgin mübarizə aparan kənd əməkçiləri öz ənənələrinə sadiq qalaraq payızlıq əkin-səpin işlərini də uğurla davam etdirirlər.***

Son günlər havaların yağmurlu keçməsi payızlıq səpin aparılması nəzərdə tutulmuş sahələrdə aqrotexniki tədbirlərin vaxtında həyata keçirilməsinə yaxşı imkan yaratmışdır.

Bu il rayonun ərazisində 6500 hektar sahədə payızlıq şum qaldırılması nəzərdə tutulmuş, 8500 hektar sahədə isə səpin aparılması proqnozlaşdırılmışdır. Ötən dövrdə şum qaldırılan sahələrin 2050 hektarında arpa, buğda səpilmişdir. Hazırda payızlıq əkinsəpin işlərinin başa çatdırılması üçün bütün qüvvələr səfərbər edilmişdir.

Payızlıq səpin aparılan sahələrin suvarılması üçün də məqsədyönlü işlər davam etdirilməkdədir. Ağstafa hidroqovşaq su istismar idarəsindən verilən məlumatlardan aydın olur ki, əkin sahələrinin suvarılması üçün Ağstafaçay su dəryaçasında kifayət qədər su tədarük olunmuşdu. Hazırda dəryaçada 55 milyon kubmetr su vardır ki, bu da payızlıq əkin sahələrinin suvarılmasını tam təmin edəcəkdir.

## Hörmətli oxucular!

**Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı olan**

## "Ağstafa"

qəzetinə 2016-cı ilin birinci yarım ili üçün abunə yazılışı davam edir. Qəzetə rayon mətbuat yayımında və redaksiyanın özündə abunə yazıla bilərsiniz.

Qəzetin yarım illik abunə qiyməti 10 manatdır.
Redaksiyanın Kapitalbankın Ağstafa filialındakı hesab nömrəsi AZO4A11B33080019445200229152,
VÖEN nömrəsi isə 36000811691-dir.
Qəzetimizə abunə yazılanlara əvvəlcədən öz minnətdarlığımızı bildiririk.

# Əhali mavi yanacaqdan korluq çəkməyəcək

**...Hələ qış fəsli başlamasa da soyuqlar düşmüşdür. Payızın soyuq günləri bir-birini əvəz etməklə az qalır indidən qışa təslim olsun. Qızıl payız öz təravətini, ətrini lap tez itirməyə başladı. Görüb-götürmüş adamlar deyirlər ki, soyuqlar tez düşdü, toylu-düyünlü payızın təmtərağı pozuldu. Neyləmək olar? İl belə gəlib. Bəs belədirsə camaatın soyuqlu havalarda əhval-ruhiyyəsi necə olacaq, evləri isitmək üçün mavi yanacaq olacaqmı?**

Bu mövzu ilə bağlı yaranan suallarla Şəmkir Regional Qaz İstismar idarəsinin Ağstafa xidmət sahəsinin rəis müavini Şəhadət Bağırova müraciət etdik və onun açıqlamasını oxucularımızla bölüşməyi vacib bildik. Rəis müavini belə dedi:

- Vacib məsələyə toxunursunuz. Elə bizim işimizin məğzi də bundan ibarətdir. Qeyd edim ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyev bölgələrə səfərləri zamanı əhalinin qazla təminatını mühüm amil kimi qarşıya qoyur. Dövlət rəhbəri tələb edir ki, hər bir kənd və qəsəbəyə qaz çəkilsin, əhali mavi yanacaqdan korluq çəkməsin.

Bu göstəriş və tövsiyəni idarəmiz əldə rəhbər tutub fəaliyyətini davam etdirir. Təkcə bu ilin əvvəlindən indiyə kimi 1060 ev qazla təmin olunmuşdur. Bununla yanaşı qaz sayğaclarının dəyişdirilməsi işi də nəzərdən qaçmamışdır. Belə ki, doqquz ayda 675 məişət qaz sayğacı yenisi ilə əvəz olunmuşdur. Yeri gəlmişkən qeyd edim ki, ümumilikdə 38 yaşayış məntəqəsindən 30-u mavi yanacaqla təmin edilmişdir.

Qaz təminatının yaxşılaşdırılması üçün bütün imkanlardan istifadə olunur. Qaz çəkilişi ilə yanaşı tənzimləyicilərin quraşdırılması da davam edir. İlin sonuna az vaxt qalmasına baxmayaraq bu işin sürətinə fikir verməklə daha 5 ədəd tənzimləyicinin quraşdırılmasını nəzərdə tutmuşuq. Təhlükəsizlik baxımından və itkilərin qarşısını almaq sarıdan bu cihazların normal işlədilməsi əsas şərtdir.

Rayonumuza mavi yanacaq normal şəkildə verilir. Lakin bəzən abonentlər giley-güzar edirlər ki, qaz zəifdir və yaxud heç verilmir. Əslində belə deyil. Problem onda yaranır ki, əvvəlki illərdə vətəndaşlar qaz xətlərini pərakəndə halda çəkmişlər və heç bir qayda-qanuna riayət etməmişlər. Buna görə də çox yerdə borulardan qaz sızması əmələ gələrək mənzilinə çatması əngəllənmişdir. İndi bunun qarşısını almaq üzrəyik. Qaz xətlərini yerin üstünə çıxarmaqla yanaşı polietilen borularla çəkirik. Məsələn, Kür çayının o tayındakı kəndlərə belə borularla qaz çəkilmişdir. Saloğlu və Soyuqbulaq kəndlərində mavi yanacaq verilməsinin açılışı zamanı abonentlər bunun şahidi oldular. Muğanlı, Köçvəlili və digər qonşu kəndlərində sayğaclama işləri yekunlaşmaq üzrədir. Hazırda ən uzaq kəndlərimizdən olan Böyük-Kəsik və Ağgöl kəndlərinə xətlərin çəkilişi davam edir.

Yaranmış çətin vəziyyət bizim özümüzü və rayon rəhbərliyini ciddi narahat edir. Kür çayının sol sahilindəki yaşayış məntəqələrinə təbii qazın verilməsində olan ləngimələr rayon rəhbərliyi tərəfindən bizə irad tutulmuş və biz bu iradı səmimi qəbul edərək işimizdə dönüş yaradılması üçün bütün qüvvələrimizi səfərbər etmişik.

Ümidvarıq ki, qış aylarına problemsiz qədəm basacağıq. Məsələn, ən böyük kəndlərdən olan Eynallı kəndi yenidən qazlaşdırılmışdır. Köçəsgər kəndində əsaslı təmir işləri aparılır. Qırılı kəndində 420 abonentə kod açılaraq təbii qazla təmin edilmişdir. Bu sayaq işlərimiz çoxdur və onun sayını getdikcə artırırıq.

Bir məsələni də xüsusilə qeyd edim ki, bir çox abonentlər qaz pulu ödəmək sarıdan narazılıq edirlər. Onlar israrla deyirlər ki, qaz pulu artıq yazılır, biz o qədər qaz yandırmırıq. Qismən bu düzdür. Lakin bu problem dünənin, bu günün problemi deyil. 2010-cu ildən bu yana bəzi vətəndaşların qalıq borcudur. Real borcdur və o, ödənilməlidir. Biz ona səy göstəririk ki, qalıq borclar ödənilsin. Buna da nail oluruq. Vətəndaşlar hissə-hissə ödəyirlər. Onu da açıq şəkildə qeyd edim ki, qaz pulunu ödəməyən abonentlərin xətlərinin kəsilmək zərurəti yaranacaqdır.

Bütün bunlarla yanaşı bir daha qeyd etmək istəyirəm ki, soyuqlar düşsə də narahatlığa əsas yoxdur. Çünki işçilərimiz var qüvvəsilə çalışacaq ki, rayon əhalisi mavi yanacaq sarıdan heç bir gün də korluq çəkməsin. Noyabrın ikinci ongünlüyündən etibarən qış normasını təmin edəcəyik. Söz yox ki, onda hamı məmnun qalacaqdır.

***Q. Qurbanov***

## Vaqif Əli-70

# Şərəflə yaşanan ömür

*Dünyaya gələn hər bir insanın həyatda öz ömür yolu, öz tale qisməti vardır. Yaşadığı ömrə bir tanrı qisməti kimi baxanlar, həyat yolunda rast gəldikləri qəza-qədərlərə mərdliklə sinə gərərək öz zəhmətinə güvənənlər, əməyi özlərinə daimi peşə edənlər həmişə, hər yerdə istədiklərinə nail olur və həyatdan kam almağı bacarırlar. Bu günlərdə ömrünün 70-ci ilini başa vuran müəllim-şair Vaqif Əli də bütün həyatını şərəfli əməyə sərf etmiş əməksevər insanlardandır.*



Vaqif Əli oğlu Həmzəyev qədim Oğuz tayfalarının məskəni olmuş Ağstafa rayonunun Tatlı kəndində dünyaya göz açmışdır. Atası Əli kişi Böyük Vətən müharibəsində alman faşistlərinə qarşı qanlı döyüşlərin iştirakçısı olmuş, bu döyüşlərin birində ağır yaralanmışdır. Müharibədən şikəst qayıtsa da, Əli kişi sonrakı illərdə böyük bir ailəni halal zəhməti ilə dolandırmış, hamısını böyüdüb ev-eşik və ailə sahibi etmişdir. Ailənin ikinci övladı olan Vaqif müəllim belə bir ailədə tərbiyə aldığından həmişə zəhmətə bağlı olmuşdur. Bu zəhmətsevərlik həmişə ona həyatda uğur qazandırmış, istədiyi məqsədə çatmaqda yardımçı olmuşdur.

Orta mətktəbdə oxuduğu illərdə Vaqif biliyi, bacarığı və çalışqanlığı ilə yaşıdlarından, sinif yoldaşlarından seçilib. Müəllimlər də onun xətrini çox istəyirdilər. Çünki Vaqif uşaqlıqdan zəhmətkeş olub. Ona görə də böyüdükcə heç bir işdən qorxub çəkinmirdi. Məktəbdə idman yarışlarında fəal iştirak edər, ictimai işlərdə hamıya nümunə olar, müəllimlərin bütün tapşırıqlarını həvəslə yerinə yetirərdi.

Tatlı kənd orta məktəbini müvəffəqiyyətlə bitirdikdən sonra Vaqif Gəncə Pedaqoji İnstitutunun tarix-filologiya fakültəsinə daxil olmuşdur. Təhsilini başa vurandan sonra isə öz doğma kəndinə-Tatlıya qayıdaraq müəllimlik fəaliyyətinə başlamışdır. O, yaxşı başa düşürdü ki, müəllimlik peşəsi müqəddəs və şərəfli olduğu qədər də çətin və məsuliyyətlidir. Vaqif müəllim bu çətinliyin də öhdəsindən layaqətlə gəlmiş, nüfuzlu müəllim kimi müxtəlif illərdə dərs dediyi məktəbdə təşkilatçı müavin, təlim-tərbiyə işləri üzrə direktor müavini, şagird-istehsalat briqadasının rəhbəri olub. Təcrübəli və bacarıqlı pedaqoq kimi bir neçə dəfə respublika müəllimlər qurultayının nümayəndəsi olmuşdur. Çoxillik səmərəli fəaliyyətinə görə "Ali kateqoriyalı" müəllim adına layiq görülmüşdür.

Maraqlıdır ki, Vaqif müəllim öz sevimli peşəsinin pərvanəsi olmaqla yanaşı həmişə bir yanğı, ürəyində poeziyaya tükənməz sevgi dolaşıb. Bu sevgi onu poeziyanın geniş üfüqlərinə pərvazlandırıb. O müqəddəs məkanda Vaqif Əli imzası ilə bir-birindən mənalı, səmimi şeirlər yazıb. Onun el-obada dillərdə kitablar dolaşan, ağızdan-ağıza gəzən şeirləri sonrakı illərdə kitablar şəklində poeziya həvəskarlarına təqdim olunmuşdur. İndiyədək yeddi kitab müəllifi kimi ədəbiyyat aləmində tanınan Vaqif Əli 2008-ci ildən Azərbaycan Yazıçılar Birliyinə üzv qəbul olunmuşdur. Müəllim-şairin yaradıcılığı çoxsahəli, mövzuları müxtəlif və rəngarəngdir. Öz üslübü və dəst-xətti olan Vaqif Əlinin şeirlərində vətənpərvərlik, el-obaya məhəbbət, ana təbiətə vurğunluq, valideynlərə tükənməz sevgi, halallıq, inam və etibar, təəssübkeşlik çox aydın hiss olunur. Nədən yazmasından, hansı mövzuya müraciət etməsindən asılı olmayaraq onun yaradıcılığını xarakterizə edən bir məqam var-səmimiyyət və ürəkdən gələn səmimi hislər.

Bütün bu fikirlər müəllim-şairin bu yaxınlarda çapdan çıxmış "Zəhmətlə ucalan insan" kitabının təqdimatına və Vaqif Əlinin anadan olmasının 70 illiyinə həsr olunmuş tədbirdə səslənmişdir. Ağstafadakı "Yazıçılar evi"ndə keçirilmiş tədbirə rayonumuzun yerli yazarları, Qazax və Tovuz ədəbi mühitinin nümayəndələri, ziyalılar, ictimai təşkilatların poeziya pərəstişkarları, el şairinin doğmaları, qohum və dostları dəvət olunmuşdular. Respublikanın paytaxtından və rayonun mədəniyyət müəssisəsindən dəvət olunmuş musiqiçilər və ifaçılar da burada idilər.

Tədbiri giriş sözü ilə "Yazıçılar evi"nin rəhbəri yazıçı-jurnalist Firdovsi Heydərli açmışdır. O, qeyd etmişdir ki, Azərbaycan ədəbiyyatının özünə məxsus tarixi vardır. Bu şanlı tarixin nümayəndələri öz qiymətli əsərləri ilə dünyanın hər tərəfində şöhrət qazanmışlar. Bu şanlı ənənəni bu gün də davam etdirən ədəbiyyat adamları həmişə dövlət qayğısı ilə əhatə olunmuşlar. Xüsusilə ulu öndər Heydər Əliyev ikinci dəfə respublikamıza rəhbərliyə qayıdandan sonra bu qayğı və diqqət daha da artmış, şair və yazıçılarımıza layiqli qiymət verilmişdir. Bu sonsuz qayğı və diqqət hazırda müstəqil respublikamıza inamla rəhbərlik edən respublika Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir. Ədəbiyyatımızın inkişafı naminə ən gözəl bədii əsərlər yaradan şair və yazıçılarımız yüksək dövlət mükafatlarına layiq görülürlər. Bu qayğı və diqqətin bəhrələri rayonumuzda da aydın hiss olunur. Rayon icra hakimiyyəti rəhbərlərinin təşəbbüsü ilə "Yazıçılar evi"ndə dünyasını dəyişmiş ədəbiyyat xadimlərinin xatirə günləri, şair və yazıçıların yubileyləri, el şairlərinin kitab təqdimatları və sair ədəbi-bədii tədbirlər keçirilir.

Tədbirdə çıxış edən yerli yazarlar, el şairləri, müəllim-şairin qələm dostları Vaqif Əlinin yaradıcılıq xüsusiyyətlərindən danışdılar və ona möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları arzuladılar. Tanınmış incəsənət ustaları respublikanın əməkdar artisti İlkin Əhmədov, müğənni Eldar Ələkbərov, aşıq Azər Xanlaroğlu, artist Mikayıl Şou öz ifaları ilə tədbiri daha da canlandırmışlar. Yerli aşıqlarımız Maksim Muğanlı, Hüseyn Əzizoğlu, Rauf İsmayılov Vaqif Əlinin seirlərindən bir neçəsini aşıq havaları üstündə oxumuşlar.

Tədbirdə yubilyara müxtəlif hədiyyələr və təltiflər verilmişdir.

Yubiley tədbiri xüsusi banketlə başa çatmışdır.

# Valideynlər razılıq edirlər



*Gələcəyimiz olan uşaqlara qulluq göstərmək, onları sağlam və gümrah böyütmək hamının müqəddəs borcudur. Hamı kimi biz 3 saylı uşaq bağçası-körpələr evinin kollektivi də bu müqəddəs işi layiqincə yerinə yetirmək üçün əlimizdən gələni edirik.*

Rəhbərlik etdiyim uşaq tərbiyə müəssisəsinin bu günkü vəziyyəti olduqca ürəkaçandır. 3 ilə yaxındır ki, Hüseyn Arif küçəsində yerləşən bu bağçada fəaliyyət göstəririk. Bundan əvvəl işlədiyimiz uşaq bağçasının vəziyyətini xatırlayanda deməyə söz tapmaq olmur. Ən adi şəraiti belə olmayan həmin bağça ilə artıq xeyli vaxtdır ki, vidalaşmışıq. Bu günkü xoş günü bizlərə, burada tərbiyə olunan uşaqlara qismət edən rayon rəhbərliyinə, şəxsən Rayon icra hakimiyyətinin başçısı cənab Məhərrəm Quliyevə öz adımdan, bağçamızda tərbiyə olunan uşaqların valideynləri adından dərin minnətdarlığımı bildirirəm.

Bu gün bağçamızda beş qrup fəaliyyət göstərir ki, həmin qruplardakı uşaqlarla 10 nəfər tərbiyəçi məşğul olur. Biz çalışırıq ki, tərbiyəçilərimiz bütün qruplardakı uşaqlarla tələb olunan qaydada məşğul olsunlar. Mən özüm qrupların hamısının fəaliyyətinə şəxsən nəzarət edir və çalışıram ki, valideynlər bizə etibar etdikləri uşaqlardan heç bir narahatçılıq hissi keçirməsinlər.

Biz məktəbə hazırlıq qrupunun uşaqları ilə daha ciddi məşğul oluruq. Bu qrupda 20 nəfər uşaq vardır. Qrupun rəhbəri Gülnarə Məhərrəmovanın, Nazilə Əliyevanın işindən ürəkdolusu danışmaq olar. Onlar uşaqlarla məşğul olanda özlərini həm tərbiyəçi, həm də sinif müəllimi kimi hiss edirlər. Böyük inamla deyə bilərəm ki, bağçamızdakı məktəbəhazırlıq qrupunun uşaqlarının əksəriyyəti lövhədə yazılan hərfləri yaxşı tanıyır, sərbəst şəkildə nağıl danışır, şeir söyləyirlər. Demək olar ki, biz onları məktəbə tam şəkildə hazırlayırıq.

Şəhərimizdə fəaliyyət göstərən digər uşaq tərbiyə müəssisələrinin kollektivləri kimi biz də milli bayramlarda, el şənliklərində fəal iştirak edirik. Tez-tez uşaqları Heydər bağına, Heydər Əliyev Mərkəzinə, Respublikada analoqu olmayan Azərbaycan parkına aparır, oradakı kiçik formada düzəldilmiş tarixi abidələr haqqında uşaqlara məlumat veririk. Bu işdə Səlminaz Cəfərovanın, Əntiqə Mürşüdovanın fəaliyyətini xüsusilə qeyd etmək olar. Ümumiyyətlə bağçamızdakı tərbiyəçilərin, texniki işçilərin hamısı çalışırlar ki, valideynlər onlardan razı qalsınlar. Biz bu ənənəni bundan sonra da davam etdirəcək, üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirmək üçün əlimizdən gələni edəcəyik.

***Pərvanə Məmmədova,***
***Şəhər 3 saylı uşaq bağçası-körpələr evinin müdiri***



# Karate-do turniri keçirildi

Bu günlər rayonumuzda Dövlət Bayrağı gününə həsr olunmuş karate-do turniri keçirilmişdir. Uşaq və yeniyetmələr arasında keçirilən bu yarışda Sumqayıt, Gəncə şəhərlərinin, Bərdə, Abşeron, Qazax və Ağstafa rayonlarının idmançıları iştirak etmişlər. Beş qrupda aparılan yarışda iştirak edən 100-dən çox idmançı qalib adı uğrunda mübarizə aparmışdır. 6-7 yaşlı idmançılar arasında aparılan yarışda Kamil Alməmmədov 1-ci yerə, Pərvin Həsənov 2-ci yerə, 8-9 yaşlılar arasında aparılan mübarizədə Vüsal Qəmbərov 2-ci yerə, 10-11 yaşlılar arasında keçirilən yarışda Məhəmməd Almәmmədov 3-cü yerə, 12-13 yaşlılardan Emil Cəfərov 2-ci yerə, 14-15 yaşlılardan Rəşad Nəbiyev 2-ci yerə çıxmışlar.

Yarış başa çatdıqdan sonra qalib gələn idmançılar turnirin diplomu və medallarla təltif olunmuşlar.

***N. Həsənov,***
***məşqçi***

# Etibarsız sayılır

Qarahəsənli kənd sakini mərhum Həsənov Əli Həsən oğlunun adına olan JN-0203 nömrəli (kod 50206018) Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Ağstafa şəhər sakini Məmmədova Fəridə Vahid qızının adına olan 18 nömrəli Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Dağ Kəsəmən kənd sakini Vəliyev Malik Mustafa oğlunun adına verilmiş fərdi yaşayış evinin 105 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Eynallı kənd sakini mərhum Ələkbərov Novruz Xanputa oğlunun adına olan 943 saylı Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


**BAŞ REDAKTOR:**
**İBRAHİM ƏLİYEV**

**Həmtəsisçi:**
*"Ağstafa" qəzetinin jurnalist kollektivi*
*Şəadətnamə № 308*

*Redaksiya heyəti*
*L.Eyyubova, K.Abbasov, Q.Heydərov, İ.Əliyev, S.Qaratorpaq, L.İsayeva, G.Kərimov, A.Tağızadə, F.Heydərli*

*Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.*

*Ünvan: Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10*
*Tel: 5-14-56*
*mob: (050) 344-26-20*
*Tiraj: 1000*